ədalət.-2018.-10 aprel.-S.8.



ZAKİR BAYRAMLI

## ÖMÜR NƏĞMƏSİ

Bir nəğmə köklənib mənim içimdə,
Notları rəngarəng, səlis biçimdə.

Adını qoymuşam ömür nəgməsi,
Ahəngdir onunla könlümün səsi.

Ömür dastanından doğan bu nəğmə,
Gah zilə yüksəlir, gah enir bəmə.

Mənəm bəstəçisi, həm ifaçısı,
Mənimdir şirini, şiti, acısı.

Haqqdan, ədalətdən yoğurdum onu,
Eşqdən, məhəbbətdən doğurdum onu.

Qalxdı pərdə-pərdə, danışdı söz-söz,
Yaşamaq eşqimi közərtdi köz-köz.

Yol aldım hikmətli mənalarından,
Yan keçdim həyatın bəlalarından.

Mənə xoş avazlı günlər yaşatdı,
Bəzən həzin-həzin qəm də daşıtdı.

Bu nəğmə canımdan, qanımdan gəlir,
Ən kövrək, ən həzin anımdan gəlir.

Həyatım uzunu onu dinlədim,
Ömrümü, günümü onsuz bilmədim.

Həyatın mənası zövqü nəğmədir,
Nəğməsiz bir həyat, ömür heç nədir.

Oxuyub doymuram zümzüməsindən,
Könlüm vəcdə gəlir nəğmə səsindən.

Şən oynaq ritmli, lirik nəğmə də,
Kədərli, hüznlü, perik nəğmə də,

İnsanın yaşanan həyat tərzidir.
Həyatın insana sözü, ərzidir.

Mən hələ həyatdan kam almamışam,
Nəğməni oxuyub yorulmamışam.

Bəlkə də bu nəğmə yaşadır məni,
Arabir kövrəldir, yumşaldır məni.

Fəqət həyatımın sonu yetərsə,
Ömrümün nəğməsi bir gün bitərsə.

Bu nəğmə ruhuma köçər içimdə.
Özgə bir aləmdə, özgə biçimdə.

## XƏSİSLİK

Xəsis acgöz, həris olar,
Səxavətdən geri qalar.
Doymaz gözü tamahından,
Əskik verər, artıq alar.

Yığar pulu, artar varı,
Olmaz onun dostu, yarı.
Yeməz malın şirin-şirin,
Şorla keçər hər naharı.

O anadan doğulandan,
Xislətinə hopub qandan.
Ona görə pul görəndə,
Fəda gedir, keçir candan.

"Çəkən" deyil, "içən" deyil,
Dosta qapı açan deyil.
Biri ondan borc istəsə,
Qəpiyindən keçən deyil.

Gecə-gündüz ahu-zarda,
Görən olmaz onu barda.
Xəsisliyi ucbatından,
Atıb gedər onu yar da.

Pul var ikən, yoxdur dəyər,
Yamaq-yırtıq şalvar geyər.
Bu xislətdə, bu görkəmdə
Kim verəcək ona dəyər?

## İSTƏMİRƏM MƏHƏBBƏTSİZ YAŞAMAQ

Sevgi dolu bir dünyadır həyatım,
Haqdan doğur nəğmələrim, bayatım.
Mən sevgisiz necə qalxım, boy atım?
Ağır yükdür, çox çətindir daşımaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

Məhəbbətin yolları var gözümdə,
Keçənlərin izi qalar gözümdə.
Mənə yaxın doğma olan gözümdə
Nəsibimdir daim sevib oxşamaq
İstəmirəm məhəbbətsiz yaşamaq.

Ömür mənə yaradandan pay gəlib,
Tanrı eşqi öz payına tay gəlib.
Həyatıma il yazmağa ay gəlib,
Nəyə lazım ömürləri daşlamaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

Yaranışın özəyidir məhəbbət,
İnsanların bəzəyidir məhəbbət.
Şairlərin söz meyidir məhəbbət,
Qəlbdən silib olmur onu boşlamaq.
İstəmirəm məhəbbətsiz yaşamaq.

## SƏNƏ YARIM SÖYLƏDİM Kİ,..

Sənə yarım söylədim ki,
Sənin yarın ola bilim.
Keçim ömür yollarından,
Həyatında qala bilim.

Sənə yarım söylədim ki,
Arzuların çiçəklənsin.
Yel vurmasın çiçəkləri,
Hər istəyin gerçəklənsin.

Sənə yarım söylədim ki,
Əhdimizə and içəsən.
Gözəl, məsum sevgimizə,
Sədaqətdən don biçəsən.

Sənə yarım söylədim ki,
Qaçmayasan qınağımdan,
Sınağımdan keçə-keçə,
Nurlanasan çırağımdan.

Sənə yarım söylədim ki,
Öz yarından yarıyasan.
Günüm keçə sənin ilə,
Mənlə birgə qarıyasan.

Sənə yarım söylədim ki,
Həsrətimi bitirəsən.
Mən Zakirə könül verib,
Vüsalına yetirəsən.

## OLMUR

Ömrün çiçəklənən gənclik çağında,
Arzular bar verir könül bağında.
Həyatın bu coşqun çal- çağırında,
Sevgi yollarından keçməmək olmur.
Eşqin badəsini içməmək olmur.

Minib köhləni çapasan gərək,
Axtarıb eşqini tapasan gərək.
Sevgisiz yollardan sapasan gərək,
Məhəbbət duyğusuz, istəksiz olmur.
Sevənlər amalsız, məsləksiz olmur.

Danışma dərdini qəlbi dağlara,
Aparma kədəri o yaylaqlara.
Axıtma göz yaşı buz bulaqlara,
Gəncliyi ələmlə yaşamaq olmur.
Yükü çox ağırdır, daşımaq olmur.

Gözəldir gənclərin sevgi dünyası,
Haqdan yoğrulubdur, pakdır mayası.
Çətindir aşiqin eşqdən doyması,
Özünü odlara salmasa olmur.
Yar yarın qadasın almasa olmur.

Ötən günlərini hədərə vermə,
Ömrünü şad yaşa, kədərə vermə.
Vaxtını qəzavü-qədərə vermə,
Cavanlıq köç edir, saxlamaq olmur.
Dalınca kövrəlib, ağlamaq olmur.

## GÖZƏLLƏR

Daranar, bəzənər, çıxar qarşına,
Ağlını başından alar gözəllər.
Ovlayar könlünü, baxmaz yaşına,
Ömrünə, gününə dolar gözəllər.

Tər-təmiz gül kimi, əsilli, soylu,
Bəstəboy, incəbel, surahi boylu,
Qoymaz etinasız ötəsən yolu,
Könlünə yatımlı olar gözəllər.

Dünyanı gözəllik xilas eyləyər,
Çılqın köhlənləri tutub əyləyər.
Eşqdən, məhəbbətdən dastan söyləyər,
Sevgi nəğməsini çalar gözəllər.

Dindirsən dillənər nəzakət ilə,
Tikanlı kəlmələr gətirməz dilə.
Dönərlər pardaqlı, ətirli gülə,
Pozulsa novrağı solar gözəllər.

Keçsən düzlərindən, yoxuşlarından,
Gözlərin qamaşar naxışlarından.
Canına od düşər baxışlarından,
Başını bəlaya salar gözəllər.

Zakir, öz yolunla farağat yeri,
Gedib gözəlliyin, qayıtmaz geri.
Sənin gözəllərə yazdığın şeiri,
Oxuyub xəyala dalar gözəllər.